**UOT 7214.01** **Səh. (125-132)**
**DOİ:** https://doi.org/10.59849/2219-7370.2024.30.125

# İSLAMDA DİNLƏRARASI DİALOQA FƏLSƏFİ-SİYASİ MÜNASİBƏT

**Elnur Mustafayev**
AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
"Din və ictimai fikir" şöbəsinin müdiri, İnstitutun Gənc Alim və
Mütəxəssislər Şurasının sədri, fəls.ü.f.d.
elnur.mustafayev88@mail.ru

**Xülasə**

Məqalədə dialoqun mahiyyəti haqqında bəzi mövzular tədqiq edilmiş və müasir dövrdə dialoqun bir sıra münaqişələrin həll edilməsində mühüm rolu diqqətə çatdırılmışdır. Müəllif xüsusi ilə İslam dünyagörüşündə dialoqun prinsipləri və mövzu ilə əlaqədar müxtəlif fikirləri tədqiq etmişdir. Dialoq təkcə ünsiyyət vasitəsi deyil, eyni zamanda müxtəlif düşüncə məktəbləri arasında əlaqələrin yaranmasına şərait yaradan bir mexanizmdir. Dialoq mahiyyətcə universallıq, ümumbəşərilik, qardaşlıq, dini-mədəni müxtəliflik, düşüncə və etiqad azadlığı, plüralizm kimi ülvi dəyərlərə söykənir. Bu mədəniyyətin və bu xüsusda sivil mühitin formalaşması üçün mühüm olan bütün bu prinsiplər başlanğıcını humanist dəyərlərə əsaslanan beynəlxalq hüquqdan və müxtəlif dinlərə məxsus mütərəqqi ideyalardan götürür. Bu prinsiplər beynəlmiləl dinlərin, eyni zamanda, cahanşümul humanist ideyaların ruhunu çulğalayır və təbiətinə münasibdir.

Həmçinin İslam təlimləri kontekstində dialoqların məqsədləri və faydalarına dair bir çox problemlər araşdırılmış və müqayisəli şəkildə təhlillər aparılmışdır. Müəllif dialoqun mahiyyəti, məqsədləri, prinsipləri, şərtləri, ədəb-ərkanları haqqında araşdırmalaaparmış mövcud problemlərdən, onların həlli yollarından söz açmışdır. Məqalədə dialoqun faydası, dinlər və məzhəblərarası yaxınlaşma, əməkdaşlıq və bir-birilərinə qarşı yalnış təsəvvürlərin redaktəsi, radikalizm və ekstremizm meyillərinə qarşı mübarizə, mötədilliyə əsaslanan düşüncələrin inkişaf etdirilməsi və sairə kimi mövzular tədqiq olunmuşdur.

**Açar sözlər:** dialoq, İslam, din, beynəlxalq əlaqələr, ideologiya

## PHILOSOPHICAL-POLITICAL ATTITUDE TO INTERRELIGIOUS DIALOGUE IN ISLAM

**Elnur Mustafayev**
researcher of the "Religion and history of public opinion"
department of the Institute of Oriental Studies
named after Z.M.Bunyadov of ANAS
elnur.mustafayev88@mail.ru

**Summary**

Firstly, some topics about the nature of dialogue were studied and the important role of dialogue in solving a number of conflicts in the modern era was brought to attention in the article. In particular, the author has studied the principles of dialogue in the Islamic worldview and various opini-

ons on the subject. Dialogue is not only a means of communication, but also a mechanism that facilitates the creation of connections between different schools of thought. The dialogue is essentially based on such lofty values as universality, brotherhood, religious and cultural diversity, freedom of thought and belief, and pluralism. All these principles, which are essenatial for the formation of this culture and the civilized environment in this particular, originate from international law based on humanistic values and progressive ideas of various religions. These principles inspire the spirit of international religions, as well as universal humanist ideas, and are appropriate to their nature.

In the article, many problems related to the goals and benefits of dialogues in the context of Islamic teachings were investigated and analyzed in a comparative manner. The author investigated the essence, goals, principles, conditions, manners of the dialogue, talked about the existing problems and solutions. The article examines topics such as the benefit of dialogue between religions and inter-denominational rapprochement, cooperation and editing of misconceptions against each other, fight against radicalism and extremism tendencies, development of thoughts based on moderation, and so on.

**Keywords:** dialogue, Islam, religion, international relations, ideology

## ФИЛОСОФСКО-ПОЛИТИЧЕСКОЕ ОТНОШЕНИЕ К МЕЖРЕЛИГИОЗНОМУ ДИАЛОГУ В ИСЛАМЕ

**Эльнур Мустафаев**
заведующий отделом «Религия и общественное мнение»
Института востоковедения имени З.М.Буньядова НАНА,
председатель Совета молодых ученых и
специалистов института, к.ф.н.,
elnur.mustafaiev88@mail.ru

### Аннотация

В статье рассмотрены некоторые темы о природе диалога, важную роль диалога в разрешении ряда конфликтов в современную эпоху. В частности, автор изучил принципы диалога в исламском мировоззрении и различные мнения по этому поводу. Диалог — это не только средство общения, но и механизм, способствующий созданию связей между различными школами мысли, по сути основанный на таких высоких ценностях, как универсальность, братство, религиозное и культурное разнообразие, свобода мысли и убеждений, плюрализм. Эти принципы вдохновляют на сознание международных религий, а также универсальные гуманистические идеи. В сравнительном порядке автор исследовал и изложил сущность, цели, принципы, условия, манеру общения, проанализировав такие темы, как польза диалога религий и межконфессионального сближения, сотрудничество и исправление заблуждений друг друга, борьбу с тенденциями радикализма и экстремизма, развитие мысли, основанной на умеренности и т. д.

**Ключевые слова**: диалог, ислам, религия, международные отношения, идеология

**لموقف الفلسفي والسياسي من**
**الحوار بين الأديان في الإسلام**

*ايلنور كريم أوغلو مصطفاييف ، باحث بقسم "الدين*
*وتاريخ الرأي العام" في معهد الدراسات الشرقيةمن*
*الأكاديمية الوطنية الأذربيجانية للعلوم*

***خلاصة***

تناول المقال في البداية دراسة بعض المواضيع المتعلقة بطبيعة الحوار وتسليط الضوء على أهمية دور الحوار في حل عدد من الصراعات في العصر الحديث. وقد قام المؤلف على وجه الخصوص بدراسة مبادئ الحوار في النظرة الإسلامية للعالم والآراء المختلفة حول هذا الموضوع. فالحوار ليس وسيلة للتواصل فحسب، بل هو أيضًا آلية تسهل إنشاء روابط بين المدارس الفكرية المختلفة. ويرتكز الحوار بشكل أساسي على القيم السامية كالعالمية، والعالمية، والأخوة، والتنوع الديني والثقافي، وحرية الفكر والمعتقد، والتعددية. وكل هذه المبادئ المهمة لتكوين هذه الثقافة والبيئة الحضارية على وجه الخصوص، تنبع من القانون الدولي المبني على القيم الإنسانية والأفكار التقدمية لمختلف الأديان. وهذه المبادئ تلهم روح الأديان العالمية، وكذلك الأفكار الإنسانية العالمية، وتتناسب مع طبيعتها.

وفي هذا المقال تم بحث وتحليل العديد من المشكلات المتعلقة بأهداف وفوائد الحوارات في سياق التعاليم الإسلامية بشكل مقارن. وقد تناول المؤلف جوهر الحوار وأهدافه ومبادئه وشروطه وآدابه، وتحدث عن المشاكل القائمة وحلولها. ويتناول المقال موضوعات مثل فائدة الحوار بين الأديان والتقارب بين الطوائف، والتعاون وتحرير المفاهيم الخاطئة ضد بعضها البعض، ومحاربة النزعات الراديكالية والتطرف، وتنمية الأفكار القائمة على الاعتدال، وما إلى ذلك.

***الكلمات المفتاحية:*** *الحوار، الإسلام، الدين، العلاقات الدولية، الأيديولوجيا*

## Giriş

Müasir dövrdə, xüsusilə 11 sentyabr 2001-ci il hadisəsindən sonra dünyanın siyasi mənzərəsində baş vermiş radikal dəyişikliklər, dinlər və məzhəblər arasında cərəyan edən bəzi neqativ hallar dinlərarası dialoq üçün münbit bir şərait yaratmışdır. Ümumiyyətlə, dialoq anlayışı, onun əhatə etdiyi istiqamətlər, mədəni-siyasi və dini-ictimai-siyasi təsirlərinin öyrənilməsi günümüzdə ən aktual mövzulardan birinə çevirilmişdir. Qeyd etmək olar ki, dialoq bir sıra münaqişələrin həlli yolunda və tənzimlənməsində əlverişli mexanizm kimi çıxış edə bilər. Başqa sözlə, dialoq müxtəlif din və mədəniyyətlərin bir-birini tanıması üçün ünsiyyət vasitəsidir. Eyni zamanda fikir müxtəlifliyinin hüquqi bazasını yaratmaq üçün yaxşı bir alətdir. Təbii ki, insanlar arasında fikir müxtəlifliyinin səbəbi təkcə din, məzhəb və onların istinad etdikləri qaynaqların fərqliliyi deyil, həmçinin siyasi dairələrin maddi-mədəni, qlobal iqtisadi və geostrateji maraqları da bu məsələdə xüsusi rol oynayır (1, 124).

Dinlərarası dialoqun diqqətə aldığı əsas problemlərdən biri mənəvi dəyərlər sisteminin müasir dövrdə müxtəlif cəmiyyətlərdə tutduğu yeri müəyyən etməkdən ibarətdir. Mənəviyyat ümumbəşəri olmaqla yanaşı, həm də milli xüsusiyyətlərə, çalarlara malikdir. Dinlərin ümdə prinsip və müddəaları sabit olsa belə, onu qəbul edən müxtəlif xalqların daşıdığı xüsusiyyətlərə uyğun olaraq müəyyən dəyişikliyə məruz qala bilər. Əlbəttə, bu təbii bir prosesdir və hər bir xalqın dinə münasibəti özünəməxsus dünyagörüşü və minilliklər ərzində icra etdikləri adət-ənənələr əsasında formalaşır. Misal olaraq İslam dininin əsas qayəsini təkallahlıq inancı təşkil edir və İslam əxlaqının başlıca prinsipləri kimi xeyirxahlıq, səxavətlilik, dürüstlük, səmimiyyət, yaşlı insanlara hörmət, uşaqlara mərhəmət göstərmək və s. qeyd etmək mümkündür. Lakin yuxarıda sadalanmış nüanslar İslam dinini qəbul edən müxtəlif xalqların adət-ənənələri və yaşadıqları coğrafi relyefin xüsusiyyətlərinə müvafiq olaraq müəyyən

element və təfərrüatlarda fərqlənə bilər. Bu proses təkcə İslam dinində deyil, bir sıra dinlərdə də müşahidə olunur. Bunu iki cür izah etmək mümkündür. Bu kateqoriyaya daxil olan dinlərin prinsip və ideyaları ümumbəşəri və cahanşümuldur, eyni zamanda müxtəlif şərait və şərtlərə müvafiq olaraq uyğunlaşma imkanları genişdir. Digər bir səbəb isə insan şüurunun və təfəkkürünün müxtəlifliyidir. Bu da özlüyündə mənəvi dəyərlərə fərqli münasibət və fərqli baxış bucağından baxmağa sövq edir. Bir azərbaycanlı müsəlmanın dini dünyagörüşü ilə əlcəzairli müsəlmanın, bir italiyalı xristianla braziliyalı xristianın dini dünyagörüşü, mənəvi dəyərlərə yanaşması nəzəri və praktiki olaraq tam şəkildə eyni deyildir və sahib olduqları milli xüsusiyyətlərə görə eyni din daşıyıcıları arasında dinə münasibətdə müxtəlif təzahürləri müşahidə edirik.

Qloballaşmanın sürətlə inkişaf etdiyi müasir dünyada baş verən mürəkkəb siyasi kataklizmlər, etnik-dini münaqişələr, aqressiv separatçılıq və dini ekstremizm, terrorizm kimi təhdidlər beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi maneə olaraq qalmaqdadır. Bu baxımdan, dinin insan mənəviyyatında, əxlaqında və ictimai şüurunda oynadığı rolu nəzərə alaraq onu doğru məcraya yönləndirilməsi, bilavasitə cəmiyyətdə vicdan azadlığının meyarlarının düzgün müəyyənləşdirilməsi olduqca vacib bir məsələdir. Bu cür təhlükələrin qarşısını almaq üçün din sahəsində yüksək ixtisaslı milli kadrların yetişdirilməsi və bu sahədə akademik təhsil və tədqiqat ocaqlarının yaradılması, eyni zamanda mütəmadi olaraq dinlərarası dialoqların təşkil edilməsi diqqətə alınmalıdır.

Bu problemlər ətrafında dialoq aparmaq ümumi dini şüurun inkişafına səbəb olur, dialoq iştirakçılarının təcrübəsini artırır, dini kimlik haqqında dolğun məlumatlar yaradır, həm özünə, həm də başqalarına qarşı baxış tərzini redaktə edir (5, 49).

Dinlərin dialoqa münasibətinə gəlincə isə bu məsələdə fərqli fikirlər mövcuddur. Bu, beynəlmiləllik və məhəllilik baxımından özünü göstərir. Belə ki, beynəlmiləl dinlər cahanşümul prinsipləri özündə əks etdirdiyi üçün adətən başqalarına qarşı açıqdır və digərlərini özünə qatmağa meyillidir. Məhəlli xüsusiyyətlərə malik dinlər isə milli dinlərdir ki, daha çox qapalı olmaqları ilə seçilirlər (12, 25). Dinlərin daşıdığı xüsusiyyətlərə müvafiq olaraq dialoqa münasibət bu istiqamətdə haçalanır. Bir çox hallarda beynəlmiləl dinlər dialoqa açıq və müsbət yanaşdığı halda, məhəlli dinlərdə isə bunun əksini müşahidə edirik. Milli dinlər millətçilik və dini təəssübkeşlik ucbatından digərləri ilə əlaqə yaratmağa o qədər də istəkli deyirlər. Bəzən milli dinlərin təmsilçiləri üçün dialoq başqaları ilə əlaqə vasitəsi kimi əhəmiyyət daşımır (6,32).

## İslamda dialoq

İslamın dialoqa münasibəti bir sıra dinlərlə müqayisədə daha müsbətdir. Dialoqa bu cür münasibət İslam dininin universallığından, həmçinin öz ideyalarını tanıtdırmaq məqsədindən irəli gəlir. Lakin buna baxmayaraq islam dünyasında dinlərarası dialoq məsələsinə fərqli yanaşmalar mövcuddur. Bəzi müsəlmanlar dialoqa inkarçı mövqedən yanaşaraq buna lüzum olmadığı qənaətinə gəlmişlər. İnkarçı mövqedən yanaşan müsəlmanlar dialoqun bir hiylə olduğunu, bu vasitə ilə müsəlmanları öz dinlərindən uzaqlaşdırmaq və siyasi cəhətdən özlərinə tabe etmək məqsədi üçün təşkil edildiyini düşünür. Onların fikrinə görə adətən dinlərarası dialoqların müstəqilliyi təmin edilmir, ayrı-seçkiliyə yol verilir və bir sıra hallarda ikili standartlar tətbiq edilir. Dialoqa mənfi münasibətin digər bir səbəb isə missionerlik məqsədlərinin güdülməsidir. Hişam əl-Məkkiyə görə müasir dövrdə dinlərarası dialoq və ya xristianlıq-islam dialoqu adı altında aparılan dialoqlar, əslində, Qərb tərəfindən idarə edilir və xristianlaşdırma məqsədini güdür (3, 72). Xristian dünyasında dialoqu İsa peyğəmbərin təlimini başqa millətlərə çatdırma vasitəsi kimi başa düşən insanlar da mövcuddur. Belə ki, dialoq xristianlaşdırma fəaliyyətinin bir növü olub Qərb siyasi dairələr üçün yeni qapılar açır.

Yuxarıda qeyd edilən fikirlər arasında haqlı iradlar olmasına baxmayaraq bu fikirlərlə tam razılaşmaq mümkün deyildir. Bəzən

müəyyən dairələrin siyasi məqsədlərinin həyata keçirilməsi məqsədi ilə təşkil edilən dialoqlara rast gəlmək olar, lakin bununla yanaşı heç bir siyasi mərkəzin və ya dinin inhisarında olmayan, faydalı və səmərəli dinlərarası dialoqların keçirildiyi də qeyd edilməlidir (13, 62). Bu baxımdan müsəlmanlar arasında dinlərarası dialoqun keçirilməsinin zəruriliyini və faydalı olduğunu təsdiq edən din xadimləri, tədqiqatçılar və mütəfəkkirlər də kifayət qədər çoxdur. İslamın cahanşümulluğu zəruri edir ki, başqaları ilə mədəni və iqtisadi əlaqələr yaradılsın və birgəyaşayış mühiti təmin edilsin. İslama görə bəşəriyyətin kökü birdir və bütün bəşəriyyət Adəm və Həvvadan törəmişdir (7, 120). Bəşəriyyətin yaradılış birliyi isə dinlərarası və xalqlararası qardaşlığa, eyni zamanda birgəyaşayış prinsiplərinin reallaşmasına zəmin yarada bilər. İslam tarixinə nəzər saldıqda müsəlman cəmiyyətlərində müsəlmanla qeyri-müsəlman arasında ayrı-seçkilik hallarına dair heç bir faktın olmadığını görürük. Müsəlmanların hakim olduğu ərazilərdə tarix boyu digər dinlərin nümayəndələri dinc şəraitdə yaşamış, yerli əhali ilə qaynıyıb-qarışmış və heç bir təcridə və təzyiqə məruz qalmamışlar. Məhz bu baxımdan, bir çox müsəlman alimləri dialoqun bəşəri qardaşlıq çərçivəsində bir araya gəlib tanış olmaq, təfriqə səbəblərini aradan qaldırmaq, qarşılıqlı mənafe güdmək, ortaq bəşəri mühitdə həm fayda vermək, həm də faydalanmaq kimi düşünürlər. İslamda dialoq güclü və sabit dayaqlara malikdir. Bu cür dialoqlar müxtəliflik, plüralizm və dinseçmə hüquqlarını tanıyır, ədalətə, doğruluğa, qardaşlıqa, səmimiliyə, birgə yaşayışa, tolerantlığa, seçim azadlığına əsaslanır, həmçinin təəssübkeşlik və radikallığı rədd edir, ədalətsizliyə və istismarçılığa isə yox deyir. İslama görə dialoq zamanı qarşı tərəfin rəyinə hörmət bəsləmək, məşvərətə əhəmiyyət vermək və əxlaqi qaydalara riayət etmək vacibdir. Dini plüralizmi və din seçimində azadlığı tərənnüm edən hüquqi əsaslara Qurani-Kərimdə rast gəlmək olar. Məsələn: “Dində heç bir məcburiyyət yoxdur...” (Bəqərə, 256), “Sizin öz dininiz var, mənim də öz dinim var” (Kafirun, 6), “Və de: “Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim istəyir inanmasın...” (Kəhf, 6).

Qeyd edilən Quran ayələrindən məlum olur ki, İslam mədəniyyəti əsas etibarı ilə dialoq mədəniyyətinə sahibdir. Bu mədəniyyət quruluş baxımından universallıq, bəşərilik, məntiqilik, düşüncə və etiqad azadlığına, plüralizmə, dini-mədəni müxtəliflik hüququnun tanınmasına əsaslanır. Dialoq mədəniyyətinin formalaşdırılması üçün mühüm olan bütün prinsiplər Quran və Məhəmməd peyğəmbərin təlimlərindən başlanğıcını götürür.

## Qurani-Kərimdə dialoqa münasibət

Quranda dialoqun təsdiqi və qanuniliyi barəsində kifayət qədər ayələr mövcuddur. Həmin ayələrə diqqətlə nəzər saldıqda məlum olur ki, Quran dialoqu insanlar arasında mühüm tanışlıq vasitəsi kimi qəbul edir. Qurani-Kərimə görə dialoq həmçinin məntiqi dəlillərə və mənəvi dəyərlərə əsaslanan insanları həqiqətə çağıran bir vasitədir. Ayələrdə insanların bir kökdən yarandığı qeyd edilməklə yanaşı müxtəlifliyi də diqqətə çatdırılır. Quran bu növdən olan müxtəlifliyi təbii qanunauyğunluq hesab edir və insanları bir-biri ilə yaxından tanış olmağa səsləyir. Misal olaraq aşağdakı ayəni qeyd etmək mümkündür:

“Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə böldük...” (Hücürat, 13) Yuxarıda qeyd edilən ayədə müxtəlifliyin ilahi bir qanun olduğu açıq şəkildə sezilir. Belə ki, “sizi bir kişi və bir qadından yaratdıq” ifadəsindən məqsəd İbrahimi dinlərdə qəbul olunmuş ilk insanlar, “Adəm və Həvva”ya işarədir. Qeyd etmək olar ki, İslam və bir sıra dinlərin dünyagörüşündə insanların bir kökdən və bir mənbədən yaradılması təsdiq edilir və bu da insanlar arasında qohumluq əlaqələrinin olmasını dolayısı yolla xatırlatmaqdır (2,35). Daha sonra isə insanların müxtəlif xalqlara və millətlərə bölünməsi məsələsinə toxunulur ki, bu da kainatda müxtəlifliyin bir həqiqət

olmasına dəlalət edir. Əlbəttə, müxtəliflik dedikdə fiziki və milli-irqi fərqlərlə yanaşı sözdə, rəydə, inanclarda müxtəliflik də nəzərdə tutulur. Təbii bir proses olaraq insanlar düşünmə, qavrama, dil, rəng və s. xüsuslarda fərqli yaradılıblar ki, bu da öz növbəsində fikir plüralizminə səbəb olur. Bu mövzu ilə bağlı Məhəmməd peyğəmbərin bir neçə kəlamını qeyd etmək problemin daha aydın şəkildə anlaşılması üçün faydalı ola bilər:

*“Ey insanlar... Diqqətli olun, nə ərəbin əcəmdən, nə də əcəmin ərəbdən, nə qaradərilinin qırmızıdərilidən, nə də qırmızıdərilinin qaradərilidən heç bir üstünlüyü yoxdur... (8, 421)*

*“Allah sizin əsl-nəsəbinizə, zahiri görkəm və var-dövlətinizə deyil, qəlblərinizə nəzər yetirər”.*

Göründüyü kimi bu müxtəliflik dini, irqi, milli, cinsi və mədəni ayrı-seçkiliyə, birinin digərindən üstün olması kimi nəzəri və praktiki düşüncələrə yol açmamalı, əksinə bir-birilərini tanıma və müxtəlif sahələrdə əməkdaşlıq vasitəsi kimi istifadə edilməlidir. Şübhəsiz, düşüncələrin müxtəlifliyi hadisələrə fərqli baxış bucaqları dialoqu zəruri edir. Başqa ifadə ilə desək, İslama görə dialoq təbii və fitri tələbatdır.

Bu istiqamətdə dialoqun əhəmiyyəti və zəruriliyi ilə bağlı Qurani-Kərimdən digər bir ayəni qeyd etmək olar:

“De: Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin!...” (Ali İmran/64)

Ayədəki istifadə edilmiş sözlərin işlənmə üslubuna və daşıdığı məna yükünə diqqətlə nəzər salsaq bir daha İslam dinində dialoqun legitimliyini görə bilərik. Belə ki, ayədə “... bir kəlməyə tərəf gəlin” cümləsindəki “gəlin” sözü dialoqun qanuniliyinə, ona təşəbbüsün zəruriliyinə işarə edir.

Digər bir vacib məsələ isə dialoqda ədaləti və insafı gözləməkdir. Ayədəki “sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlmə...” ifadəsi qeyd etdiyimizə dəlalət edir. “Eyni olan (fərqi olmayan) bir kəlmə” təbirini müştərək hədəflər kimi izah etmək mümkündür ki, bu da dialoq zamanı ədalət və insafı təmin etmək məqsədi ilə deyilmişdir (99, 21).

## Məhəmməd peyğəmbərin (s) ictimai-siyasi fəaliyyətlərində dialoqa dair nümunələr

Məhəmməd peyğəmbərin sünnəsində qeyri-müsəlmanlarla dialoqun qanuniliyi təsdiqlənir. Belə ki, dinin təməl prinsiplərinə xələl gətirmədən digər dini konfenssiyaların nümayəndələri ilə müxtəlif istiqamətlərdə danışıqlara keçmək, əlaqələr yaratmaq icazəlidir (10, 152). Qeyd etmək lazımdır ki, Məhəmməd peyğəmbər İslam dinin zühurundan sonra ilk dövrlərdə bir çox yəhudi və xristian icmalarının üzvləri ilə dialoqa girmişdir. Misal olaraq daha sonralar İslamı qəbul etmiş yəhudi Abdullah ibn Səlam ilə Məhəmməd peyğəmbərin əlaqələrini qeyd etmək mümkündür. Abdullah ibn Səlam Məhəmməd peyğəmbərlə bir sıra mövzularda diskusiya aparmaq üçün onunla söhbət etmiş və müzakirələrin yekununda İslamı qəbul etmişdir.

Mövzu ilə bağlı dinlərarası dialoq və əlaqələrin qurulmasına dair digər bir sübut “Mədinə anlaşması”dır. Məhəmmd peyğəmbər Mədinə şəhərinə hicrət etdikdən sonra şəhərdə yaşayan yəhudi əsilli qəbilələr ilə müsəlmanlar arasında birgəyaşayış və qarşılıqlı yardımlaşma anlaşması imzalanır.“Mədinə anlaşması”nda müsəlmanlarla yəhudilərin arasında möhkəm əlaqələr müəyyənləşdirilmiş, yəhudilər İslam dövlətinin vətəndaşı hesab edilmişdir. Bu anlaşmaya əsasən yəhudilərin etiqad azadlığı tanınır və himayə edilmə hüququna sahib idilər. Bundan əlavə, yəhudilər ilə iqtisadi, hərbi və mədəni əlaqələrin qurulması da anlaşmanının müddəaların öz əksini tapırdı (4, 192).

Müqavilədə bir sıra yəhudi qəbilələri – Bəni-Nəccar, Bəni-Haris, Bəni-Cüşm və sairələrin adları qeyd edilmiş və hər iki din mənsublarının öhdəlik və vəzifələri müəyyənləşdirilmişdi. Tarix mənbələrinə nəzər saldıqda Məhəmməd peyğəmbərin xristianlarla da dialoqa keçdiyini, müştərək maraqlara xidmət edəcək əlaqələri yaratdığını

da müşahidə edirik. Bu dialoqların ən əhəmiyyətlisi isə Peyğəmbərin Nəcrandan gəlmiş heyətlə dialoqudur. Tarixə "Mübahilə günü" kimi düşmüş bu hadisə hicri-qəməri 10, miladi 631/32-ci il Zil-hiccə ayının 24-də baş vermişdir. Yəmənin Nəcran məntəqəsindən bir sıra mövzuların müzakirəsi üçün Mədinə şəhərinə gələn bir qrup xristianla Məhəmməd peyğəmbər arasında baş tutmuş bu dialoq iki din arasındakı ilk təmaslardan hesab oluna bilər.

Həbəşistana mühacirət etmiş müsəlmanların Həbəş kralı ilə dialoqunu da bu qəbildən hesab etmək olar. Bu dialoqun nəticəsində Məkkədə təzyiqlərə məruz qalmış bir qrup müsəlman xilas olaraq Həbəş kralı Nəcaşinin hamiliyini qazanırlar. Qeyd etmək lazımdır ki, bu dialoq iki din nümayəndələri arasında müsbət əlaqələrin qurulmasına yol açmışdır. Bu xoş münasibətlər Məhəmməd peyğəmbərin Həbəş kralına bəslədiyi müsbət fikirlərdə özünü göstərirdi. Belə ki, təzyiqlərə məruz qalmış müsəlmanlara Həbəşistana səfər etmələrini tövsiyyə verdikdə Məhəmməd peyğəmbər Həbəşistan kralı haqqında belə bir fikir bildirmişdi:

"Oranın heç kimə zülm etməyən adil hökmdarı vardır. Ora təhlükəsiz yerdir və Allah sizi düşdüyünüz vəziyyətdən xilas edəcəkdir".[30] Nəzərə almaq lazımdır ki, bu dialoqun mühacir müsəlmanlara xeyiri çox oldu. Onlardan biri də Həbəş kralı Nəcaşinin himayəsini qazanmaq və Məkkə zadəganlarının təzyiq və təhdidlərini zəiflətmək idi. Bundan əlavə, Nəcaşi, mühacir müsəlman və bütpərəst Qüreyş nümayəndələrinin arasındakı dialoq tarixi-dini cəhətdən böyük məna kəsb edirdi. Onun tarixi əhəmiyyəti bundan ibarətdir ki, o, ilk xristian-müsəlman dialoqu hesab edilir. Dialoqun dini aspekti isə onun müsəlmanlarla xristianların beynəlxalq müstəvidə ilk dini kontakt olmasında təzahür edir. Belə bir dialoqa zəmin yaradan təbii ki, hər şeydən əvvəl dini prinsiplərdə müxtəlifliklər idi. Çünki, bu dialoq üç dini tərəf - islam, xristianlıq və bütpərəstlik arasında baş tutmuşdu.

[30] Məhəmməd ibn Əbdülməlik ibn Hişam, Peyğəmbərin həyatı, cild I, səh. 343.

### *İslam dininə görə dialoqun əsas şərtləri*

Dialoqun baş tutması üçün zəruri şərtləri aşağdakı kimi ümumiləşdirmək olar:

a) Dialoq zamanı dinlərin və mədəniyyətlərin müstəqilliyi təmin edilməlidir;

b) Dialoq bu və ya digər dinin və yaxud mədəniyyətin hegemonluğuna tab etdirilməməlidir

c) Dialoq demakratik şəraitdə baş tutmalı və bu istiqamətdə ədalətli yanaşma, bərabərlik kimi prinsiplər gözlənilməlidir

d) Dialoqda iştirak edən hər bir tərəfin öz düşüncələrini və ideyalarını sərbəst şəkildə ifadə etməsi üçün şərait yaradılmalı və bu zaman siyasi və dini təzyiq vasitələrinə imkan verilməməlidir.

e) Dialoq zamanı ədəb-ərkan qaydaları; xoş söz, yumşaq rəftar, təvazökarlıq, məsləhətləşmə və məşvərət kimi əxlaq qaydaları gözlənilməli və dialoqların davamlılığı təmin olunmalıdır.

f) Problemin obyektiv və ciddi şəkildə müzakirəsi, mövzudan uzaqlaşmama, qərəzsizlik, qərar verməkdə ədalətli mövqe, irəli sürülmüş iddiaların mötəbər dəlil-sübutlarla əsaslandırılması dialoqun səmərəliliyini artırır. Dialoq obyektiv təsvirə, təhlilə, ədalətli hökmə xələl gətirəcək qərəzli fikirlərdən uzaq olmalıdır.

g) Dialoq aydın dildə aparılmalı, dinin və ya teologiyanın mürəkkəb mövzularına toxunulmamlıdır.

h) Dialoqda iştirak edən dinlərin bir-birinə münasibətinin müəyyənləşdirilməsi məqsədilə müqayisəli təhlillər aparılmalıdır.

## Nəticə

İslam dünyagörüşünə əsasən dialoqun böyük əhəmiyyəti və faydaları vardır. İslam dinini dialoq dini kimi dəyərləndirsək heç də mübaliğə etmərik. Müsəlmanlar islam dinin meydana çıxmasının ilk dövrlərindən etibarən dialoq mədəniyyətinə sahib olmuş, islam düşüncə irsini formalaşdırmada dialoqun geniş imkanlarından istifadə etmişlər. Bundan əlavə, müsəlmanlar dialoqdan digər din və

mədəniyyətlərlə əlaqələrin qurulmasında ünsiyyət vasitəsi kimi istifadə etmişlər. Dialoq müsəlmanların digər din və mədəniyyətlərlə ünsiyyət vasitəsi olub qeyri-müsəlmanlarla dini münasibətlərin əsası, tarix boyu islam sivilizasiya ilə digər sivilizasiyaların təmasında böyük rola malik olmuşdur.

İslam dininə görə sağlam və obyektiv şərtlər əsasında qurulmuş dialoqun əsas faydalarından biri də sosial problemlər aradan qaldırılır, şüur səviyyəsi yüksəlir, ali-mənəvi anlayışlar təkmilləşir, xalqlararası dini-mədəni əlaqələr arzu edilən dəyişikliklərə səbəb olur. İslamın dialoqla bağlı prinsiplərində etik qaydaların gözlənilməsi şərtdir. Qurani-Kərim və Məhəmməd peyğəmbərin həyat tərzində dialoqa dair ədəb-ərkan qaydaları mövcuddur. Bu prinsiplərə xoş söz, təvazökarlıq, ədalət və obyektivlik, məsləhətləşmə və məşvərət daxildir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Flecha R, (2000). Sharing Words. Theory and Practice of Dialogic Learning. Lanham, Rowman and Littlefield.
2. Həsən, M.X. (2008), əl-Hivar mənhəcən va səqafətən, Doha, Mətbə`ətu Qatar
3. Hişam, Ə. (2003). Sivilizasiyalararası dialoqa baxış: dialoqun həqiqi imkanlarına doğru / əl-Kəlimə jurnalı/, Beyrut, № 39
4. İbn Hişam, M.Ə. (1990). əl-Siratun-Nəbəviyyə, Beyrut, Dər-ul kutubil-arabiyyə
5. Leonard, S, Khalid, D, Reuven, F. (2007). Trialogue: Jews, Christians, and Muslims in Dialogue, New London, Twenty Third Publication
6. Nakamura, H. (1964). The Ways of Thinking of Eastern Peoples, University Hawaii Press
7. Qurani – Kərim məalı (2006) / tərc. ed., Z.M. Bünyadov, V.Məmmədəliyev – Bakı: Qismət.
8. Reyşəhri, M. (2008). Mizanül-hikmə, Tehran, Daneşgah, IV cild.
9. Rifai, M.H. (2013). Siyəsətül-hivar beynə ətbə`il-ədyan vas-səqafat, Riyad, Məktəbətu Məlik Fəhd
10. Süleyman, V. (1976). əl-Hivar beynəl-ədyan, Qahirə, Hey`ətu nəşril-kutub
11. Vaizi, Ə. (2001), əl-Muctəmə əl-Dini və əl-Mədəni, Beyrut, Dər-ul Hadi
12. Xətib, M.Ə. (2008). Muqaranat ul-Ədyan, Əmman, Dər-ul Məsira
13. Y. Masih. (2000). in A Comparative Study of Religions, Delhi, Motilal Banarsidass Publishers:

**Rəyçi:** **Fəlsəfə üzrə fəlsəfə doktoru Gündüz Süleymanov**

**Göndərilib: 15.03.2024** **Qəbul edilib: 24.03.2024**